**Tvinninq layihəsi haqqında**
**QISA MƏLUMAT**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi Avropa İttifaqının Şərqi Qonşuluq Siyasəti çərçivəsində yaradılmış tvinninq alətindən faydalanmaq məqsədilə layihə sinopsisi ilə Aİ-yə müraciət etmiş və müsabiqədən keçmiş təşkilatlardan biri olmuşdur. Avropa İttifaqından alınan Texniki yardım və ya qrant hesabına həyata keçirilən "Rəqəmli şəbəkələrdə əqli mülkiyyət hüquqlarının idarə edilməsi və qorunması üzrə Əqli Mülkiyyət Agentliyinin institusional potensialının gücləndirilməsi" adlı AZ/13/ENPI/TR/1/16(AZ/44) nömrəli Tvinninq Layihəsi 09 sentyabr 2019-cu il tarixində başlamışdır. Layihə 24 ay davam edəcəkdir. Layihənin faktiki başlama tarixi 09.09.2019-cu il və gözlənilən başa çatma tarixi isə 09.09.2021-ci ildə nəzərdə tutulmuşdur.

Layihənin məqsədi Azərbaycan Respublikasında rəqəmli şəbəkələrdə müəllif hüquqlarının qorunması ilə bağlı cari vəziyyətin təhlil edilməsi və bu təhlilin nəticələrinə uyğun olaraq, müvafiq qabaqcıl beynəlxalq praktikalar üzrə təkliflərin hazırlanmasıdır. Layihənin əsas benefisiarı Əqli Mülkiyyət Agentliyidir. Layihənin büdcəsi 1 081 422 avro təşkil edir və tamamilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir. Həmçinin, layihə çərçivəsində digər dövlət qurumları və ictimai təşkilatlarla əqli mülkiyyət hüquqlarının birgə təminatı işinin koordinasiyasının təkmilləşdirilməsi nəzərdə tutulur.

Əqli Mülkiyyət Agentliyinin layihə üzrə əsas 2 tərəfdaşı qismində Yunanıstanın (Layihə rəhbəri – Doktor Dionisiya Kalinikou) və İtaliyanın (Kiçik layihə rəhbəri – Doktor Francesco Sciacchitano) müvafiq məsləhətçi təşkilatları çıxış edir:

- CIEEL (Centre of International and European Economic Law), Yunanıstan;
- AGCOM (Autorità per le garanzie nelle comunicazioni), İtaliya.

Layihənin 4 komponenti üzrə aşağıdakı əsas nəticələr əldə olunacaq:

- Müəllif və əlaqəli hüquqların qorunması üzrə institusional potensialın artırılması (strukturun təkmilləşdirilməsi);
- Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin texniki cəhətdən institusional bazasının gücləndirilməsi (İKT infrastrukturunun təkmilləşdirilməsi və Milli Rəqəmsal Aqreqatorun yaradılması);
- Qanunvericilik bazasının təhlil edilməsi;
- Təlimlər və ictimaiyyətin məlumatlandırılması (maarifləndirilməsi) tədbirlərinin həyata keçirilməsi.